Hörmətli qonaqlar, xanımlar və cənablar!

Dəvətimizi qəbul edib bu günki “Səma konserti”nə gəldiyiniz üçün hər birinizə təşəkkürümü bildirirəm.

İlk növbədə Səmazənlər qrupunu Azərbaycanda bir daha səmimiyyətlə salamlayır və xoş gəlmisiniz deyirəm.

Bildirmək istəyirəm edim ki, bu konsert Azərbaycan Türkiyə İş Adamları Birliyinin təşkilatçılığı və Beynəlxalq Mövlana Fondunun əməkdaşlığı ilə Türkiyənin Konya şəhərinin Selcuk Universiteti tərəfindən keçirilir. Burada sizə adını çəkdiyim Universitetin Mövlanə Araşdırma və Uyğulama Mərkəzinin Səma Qrupu tərəfindən Hamami-Zade İsmayıl Dədə Əfəndi tərəfindən bəstələnən "Hüzzam Mevlevi Ayini" təqdim ediləcəkdir. Sabah isə Bakı Dövlət Universitetində "Mövlanəni günümüzdə yaşatmaq, yaşamaq" mövzusunda Beynəlxalq Elmi-Praktik Konfrans keçiriləcəkdir.

Çoxunuza məlum olduğu kimi, UNESCO-nun təşəbbüsü ilə 2007-ci il bütün dünyada “Mövlanə ili” olaraq qeyd edilməkdədir. Bu il böyük türk və islam mütəfəkkiri, maarifçi və sülh məramlı insan Mövlanə Cəlaləddin Ruminin 800 illik yubileyi münasibəti ilə bir çox ölkələrdə geniş miqyaslı tədbirlər təşkil edilir. ATİB-in təşəbbüsü ilə keçirilən bu günki konsert və sabahkı konfrans da həmin silsilədən olan tədbirlərdəndir.

Qeyd etmək istəyirəm ki, Mövlanənin əsərlərində insanpərvərlik ideologiyası, dini tolerantlıq və humanist əxlaqi, daima təzəliyini və aktuallığını qoruyan tərbiyəvi fikirlər təbliğ edilir. Onun fəlsəfəsi insanlığa və bütün varlıqlara ilahi sevgi aşılamaqla sülhü tərənnüm edir. Siyasi fikir ayrılıqlarının, ölkələr və millətlər arası münaqişələrin, eyni yamanda ideoloinsanların ideologiyasındakı ziddiyyətlərin hökm sürdüyü müasir dünyada bu fəlsəfənin sülh və əmin-amanlığın təmin edilməsi baxımından böyük əhəmiyyəti var. İnsan sevgisinə əsaslanan fikirlərə sahib olan Həzrəti Mövlanənin sonsuz xoş məramı və sevgisi bu gün insanlığın ehtiyac hiss etdiyi barış, qardaşlıq və mənəvi həzzin açarıdır.

Bu günki konsertdə bir çox xarici ölkələrdən qonaqlar iştirak edirlər. Səma konsertinin bu gün keçirilməsinin əsas səbəblərindən biri ölkəmizdə ATİB-in bir gün öncə təşkil etdiyi biznes forumda iştirak etmək üçün işgüzar səfərdə olan xarici qonaqları mədəniyyətimizlə tanış etmək, xalqımızın sülh sevər xalq olduğunu bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırmaqdır.

Çıxışımın sonunda mən bu tədbirin təşkilində böyük dəstəyinə görə başda Mövlanənin 21-ci nəsil nəvəsi Esin Çələbi Bayru olmaqla Beynəlxalq Mövlanə Fonduna və Selcuk Universitetinə təşəkkürümü bildirir və konsertdən mənəvi zövq alacağınıza inanıram.

**Diqqətinizə görə sağ olun.**